# Uğrunda can qoyduğu torpağa 63 gün sonra qovuşan şəhid



Vətən müharibəsi şəhidi Məhəmmədəli İbrahimli Mütəllim oğlunun şəhadətindən 2 il ötür. Cebhe.info xatırladır ki, Məhəmmədəli İbrahimli 22 noyabr 1996-cı ildə Beyləqanda dünyaya gəlib. Əslən Füzulinin Cuvarlı kəndindən olan Məhəmmədəli 2003-2014-cü illərdə 215 nömrəli orta məktəbdə təhsil alıb. Eyni ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olan Məhəmmədəli 2018-2020-ci illərdə AzTU-da magistratura təhsili alıb. "Qarabağ"ın azad azarkeş qrupu olan "İmarət Tayfa"nın üzvü olan Məhəmmədəli elə tribunada da öz vətənpərvərliyi ilə seçilir.

O, 2020-ci ildə həqiqi hərbi xidmətə çağırılır. Azərbaycan Ordusunun kəşfiyyatçı əsgəri olan Məhəmmədəli İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin iştirakçısı olur. Şəhidimiz oktyabrın 3-də Suqovuşan uğrunda gedən döyüşlərdə hər iki qolundan və ayağından yaralanır. Yaralı halda üç yaralı və bir şəhid yoldaşını təhlükəsiz əraziyə çıxartmağı bacarır. Elə həmin tarixdə yaralarının sağalması üçün 15 gün müddətinə Bərdə Rayon Diaqnostika Xəstəxanasına yerləşdirilir.

Lakin içindəki Vətən sevgisi, qisas duyğusu ona 15 gün gözləməyə imkan vermir. Yaralarının sağalmasını gözləməyən Məhəmmədəli üç gün sonra müalicəsini yarımçıq qoyaraq könüllü şəkildə ön cəbhəyə qayıdır. Yaralı halda döyüşməyi seçən igidimiz oktyabrın 13-də Ağdərə istiqamətində düşmən postuna kəşfiyyat bölüyünün hücumunda iştirak edir. Döyüş yoldaşlarının şəhid olduğunu görən Məhəmmədəli təkbaşına düşmən səngərinə hücum edir. Qumbara ilə 20-dən çox düşmən əsgərini məhv edən Məhəmmədəli şəhidlik zirvəsinə ucalır.

Lakin Şəhid Məhəmmədəlinin nəşini döyüş bölgəsindən düz 63 gün sonra götürmək mümkün olur. Şəhidimiz 2020-ci il dekabrın 15-də Bakının Sabunçu rayonundakı Şəhidlər xiyabanında dəfn edilib.

**Naibə**

Cümhuriyyət.- 2022- ci il.- 14-20 oktyabr.- S. 12.